# *TƏSVİRİ İNCƏSƏNƏTİN TƏDRİSİ METODİKASI*

UOT 37.01.

***Fialeta Qüdrət qızı Babayeva,***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*

## BOYAKARLIQ ƏSƏRLƏRİNİN TƏSVİR VASİTƏLƏRİ

***Фиалета Гудрат гызы Бабаева,***
*старший преподаватель Азербайджанского Государственного Педагогического Университета*

## ОПИСАТЕЛЬНЫЕ СРЕДСТВА ПРОИЗВЕДЕНИЙ ЖИВОПИСИ

***Fialeta Gudrat Babayeva,***
*senior teacher of*
*Azerbaijan State Pedagogical University*

## DESCRİPTİVE MEANS OF PAİNTİNG WORKS

**Xülasə:** Elmi məqalə təsviri sənətin növlərindən olan boyakarlıqla bağlıdır. Burada boyakarlığın monumental boyakarlıq, dekorativ boyakarlıq, teatr-dekorativ boyakarlığı, miniatür və dəzgah boyakarlığı kimi növlərinin və janrlarının mahiyyətinə aydınlıq gətirilərək onların təsvir vasitələri öyrənilmişdir.
***Açar sözlər:*** *təsviri sənət, üslub, dəzgah boyakarlığı, freska, rəssamlıq, janr*

**Резюме:** Научная статья связана с живописью видов изобразительного искусства. Здесь проясняются сущность видов и жанров, таких как монументальная живопись, декоративная живопись, театрально-декоративное окрашивание, миниатюрная живопись и крашение.
***Ключевые слова:*** *описательное искусство, стиль, подставка живописи, фреска, живопись, жанр*

**Summary:** Scientific articles related to that type of art: abstract painting. The monumental painting and decorative art types and genres of painting, miniature painting, miniature easel painting as a means of clarifying the essence of their description and studied here and.
***Key words:*** *descriptive art, style, bench dyeing, fresco, painting, genre*

M. Əkbərova yazır: "Təsviri incəsənət – görüb qavranılan obyektiv varlığın bədii əksetdirmə fəaliyyətidir. Bədii incəsənət düşüncə və hissin inkişafına daha aydın və canlı təsir edərək, həqiqətin daha dolğun başa düşülməsinə, həmçinin həqiqi həyat və hadisələrə müəyyən münasibət tərbiyə edir" (3, 7).

İncəsənət vasitəsi ilə müşahidə olunan həyat hadisələrini görmək və xarakterizə etmək bacarığı tərbiyə olunur. İncəsənət insanları ruhlandırır, düşündürür, mübarizəyə çağırır. İncəsənət ictimai şüurun formalarından biridir. İncəsənət insanın mənəvi aləminin, onun həyata bədii-estetik münasibətinin ifadəsidir və nəhayət, incəsənət həyatın bədii əksidir. İncəsənətin müxtəlif növləri məlumdur. Məsələn, memarlıq, heykəltəraşlıq, xalçaçılıq, teatr, ədəbiyyat, kino, aktyor sənəti və s. Bunların arasında 4-ü təsviri sənətə aiddir.

1. Boyakarlıq
2. Qrafika
3. Heykəltəraşlıq
4. Dekorativ-tətbiqi sənət

Bədii formaca bütöv, özünün ideya məzmunu ilə zəngin olan incəsənət əsərləri bədii zövqü tərbiyə edir, incəsənətdə, həqiqətdə, məişətdə və təbiətdə gözəlliyi qiymətləndirmə bacarığı aşılayır. Təsviri sənət qanunları əsasında insanda bədii estetik tələblər formalaşır; gözəlliyi görmək, qiymətləndirmək, yeniliyə, yaradıcılığa

can atmaq, çalışmaq və s. kimi keyfiyyətlər aşılanır. Eyni tip həyat hadisələrinin ümumiləşmiş əksi bədii obrazın əsas xüsusiyyətlərindən biridir. Rəssamlıq, qrafika, heykəltəraşlıq, arxitektura, dekorativ tətbiqi incəsənət təsviri incəsənətin növləridir. Təsviri sənətdə bədii yaradıcılığın tarixən formalaşan növünə janr deyilir.

Rəssamlıq dünyanı və müxtəlif həyat hadisələrini daha zəngin əks etdirir. Kətan, kağız üzərində, ev və saray divarlarında rəssamlıq vasitəsi ilə real həyat yaranır. Rəng rəssamlıqda əsas vasitədir. Rəssamlıq müxtəlif bədii əsər - janr növləri ilə zəngindir və hər bir növ bir-birindən məzmunu və ifadə vasitəsinə görə fərqlənir. Hər hansı bir janr növü müxtəlif dövrlərdə yaşayıb-yaratmış rəssamların maraq dairəsindən asılı olaraq yaranmışdır. Boyakarlıq təsviri sənətin növlərindən biridir. Boyakarlıq əsərinin başlıca təsvir vasitələri rəsm və rənglərdən ibarətdir. Boyakarlıq əsərlərində obyektiv varlıq (insan və təbiət, real həyat hadisələri), dini, mifoloji obrazlar və s. rəsm və rənglər vasitəsilə əks etdirilir.

Boyakarlıq məkan sənətləri sırasına daxildir (yəni kətan, divar, ağac, şüşə və s. üzərində əks olunmuş təsvir müəyyən məkan daxilində mövcuddur). Boyakarlıqda müxtəlif dövrlərin ictimai idealları, müxtəlif fəlsəfi problemlər öz əksini tapır. Məzmun və formanın dialektik vəhdətinə əsaslanan boyakarlıq əsərlərində həyat həqiqətləri bədii obrazlar vasitəsi ilə əks olunur. Obrazlıq, emosionallıq, ifadə gözəlliyi boyakarlıq sənətinin əsas əlamətlərindəndir. Kolorit boyakarlıq əsərinin başlıca təsvir vasitəsidir.

Rənglərin bir-birinə uyarlığı, ahəngdarlığı əsərin koloritini təşkil edir. Əsərin hansı rəng çalarında işlənməsi onun məzmunundan asılıdır. Buna görə də tablonun koloriti isti yaxud soyuq, açıq yaxud tutqun, yumşaq yaxud sərt, cazibədar yaxud sönük və s. ola bilər. İşıq-kölgə koloritlə əlaqədar olan mühüm təsvir elementlərindəndir. Rəssam rəngləri qarışıqlı münasibətdə götürür, işıq və kölgə təzadlarına əsaslanaraq təsvirin daha qabarıq, forma və həcmi, əşyaları əhatə edən hava təbəqəsinin, mühitin canlı və real çıxmasına nail olur.

Bir çox halda tabloda verilən təsvir müəyyən ritmə əsaslanır. Ritm kontur cizgilərin, siluetlərin, səthlərin təkrarı, növbələşməsidir; tablonun dinamik, yaxud statik çıxması, əsasən, bununla əlaqədardır. Boyakarlıq sənəti bədii-estetik funksiyaların çoxcəhətliliyi ilə bağlı müxtəlif növlərə bölünür: monumental boyakarlıq, dekorativ boyakarlıq, teatr-dekorativ boyakarlığı, miniatür və dəzgah boyakarlığı. Hər növün özünəməxsus texniki ifadə üsulları və materialları var. Onu müxtəlif növlərə ayırmaq olar. Boyakarlığın ən qədim ibtidai forması divar rəsmləridir.

Onlar ibtidai dövrdə mağaralarda işlənilən heyvan və insan təsvirlərindən tutmuş, ən müasir ictimai binaların monumental təsvirlərini bəzəyir. Divar rəsmlərinin işlənməsi zamanı müxtəlif bədii texniki materiallardan və üsullardan istifadə olunur. Bunlardan biri mozaika üslubudur ki, xırda rəngli qeyr-şəffaf şüşə parçalarının nəm suvağa düzülməsindən ibarətdir. Qədim zamanlarda mozaika üslubundan hovuzları bəzəmək üçün istifadə edirdilər. Bundan başqa, freska adlı başqa bir texnika vardır ki, nəm deməkdir.

Divarın nəm suvağına sulu boyalarla işlənmə texnikasıdır. Boyakarlığın ən geniş yayılmış forması dəzgah boyakarlığıdır. Kətan və ya ağac üzərində yağlı boyalarla işlənilən belə əsərlər molbert adlanan xüsusi dəzgahda yaradılır. Monumental boyakarlıq əsərindən fərqli olaraq, dəzgah rəssamlığı əsərləri sərbəstdir və istənilən yerdən asıla bilər. Monumental boyakarlıq memarlıqla sintez təşkil edir: ictimai binaların, möhtəşəm imarətlərin divar, yaxud tavanlarında möhkəm və davamlı materiallara nəqş olunan təsvirlər və s. Monumental boyakarlıqda freska (divar rəsmi), mozaika (rəngli qurama), vitraj (rəngli şüşə), myolika (kaşı) geniş yayılmışdır.

Qədim Misir və Qədim İkiçayarası dövründə nəinki Asiya və Avropa, hətta Afrika və Qədim Amerikanın möhtəşəm memarlıq abidələri məhz freska texnikası ilə işlənmiş rəsmlərlə bəzənmişdir. Freskadan fərqli olaraq mozaika yağışa, qara və başqa təbii maneələrə dözümlüdür. Qədim Roma villalarındakı hovuzların dibindən mozaika orta əsrlərdə saray və məbədlərin divarlarına köçür və yüksək sənət növləri arasında özünəməxsus yer tutur. Məsələn, Bakıdakı "Nizami" metrosunu "Xəmsə"nin müxtəlif səhnələrinin (rəssam Mikayıl Abdullayev) təsvirləri bəzəyir.

Mozaika isə smalta (rəngli və qeyri-şəffaf xırda şüşə), rəngli daş, yaxud mərmər parçalarından divara nəqş olunan təsvirlərdir. Memarlıqda, əsasən, pəncərələri bəzəmək məqsədi ilə,

rəngli şüşələrdən yığılan təsvirlər vitraj texnikası ilə, rəngli-şirəli kərpic laylarından quraşdırılan təsvirlər isə mayolika ilə əlaqədardır. Memarlıqda bədii tərtibat, eləcə də müxtəlif məişət qablarının bəzək və naxışlarla işlənməsi dekorativ boyakarlıq növünə aiddir. Dekorativ boyakarlığın geniş yayılmış formaları arasında bədii vazaları bəzəyən təsvirlər mühüm yer tutur. Teatr dekorativ rəssamlığına səhnə əsərləri və kinofilmlərin bədii tərtibatı ilə əlaqədar dekor, əlbəsə və təsvirlər daxildir. Teatr dekorları, əsasən, yapışqanlı rənglərlə, o cümlədən quaşla işlənir. G. Babayeva yazır: ”Bu janrların tə-şəkkülü, əsasən, XV əsrdən başlayaraq dəzgah boyakarlığının inkişafı ilə bağlı olub.” (1)

Boyakarlığın ən geniş yayılmış forması dəzgah boyakarlığıdır. Dəzgah boyakarlığına aid əsərlər molbert adlanan xüsusi dəzgaha bənd edilən kətan, taxta lövhə, karton və s. üzərində, əsasən, yağlı boya ilə çəkilir. Yağlı boya ilə yanaşı boyakarlıqda tempera, pastel, akvarel, quaş texnikaları da tətbiq edilir.

Azərbaycan təsviri sənətində realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərə janrlarının formalaşması Bəhruz Kəngərlinin adı ilə bağlıdır. Cəmi 7 il yaradıcılıq fəaliyyəti ilə məşğul olmuş Bəhruz Kəngərli 2000-ə qədər rəsm əsəri yaradıb. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bəhruz Kəngərli boyakarlıq və qrafika əsərləri yaradıb, xüsusi dərnək açıb, fərdi sərgilərini təşkil edib. 1921-ci ildə Azərbaycanda açılan ilk böyük sərgidə Kəngərlinin 500-dən çox əsəri nümayiş etdirilib. B. Kəngərlinin yaratdığı "İlanlı dağ ay işığında", "Günəş batarkən", "Bahar" mənzərələri, "Qaçqınlar" silsiləsinə daxil olan yurdsuz insanların portretləri, "Elçilik", "Toy" kimi məişət kompozisiyaları, Naxçıvan teatrında tamaşaya qoyulmuş "Ölülər" (C. Məmmədquluzadə), "Hacı Qara" (M.F. Axundzadə), "Pəri-cadu" (Ə. Haqverdiyev) kimi səhnə əsərlərinə verdiyi bədii tərtibat və geyim eskizləri Azərbaycan boyakarlıq rəssamlığının dəyərli örnəklərindəndir.

İncəsənət əsərləri müxtəlif janrlara bölünür:

1. Tematik tablo janrı - dini əsərlərə, əfsanələrə, yaxud, rəvayətlərə işlənmiş əsərlər aiddir.

2. Batal janrı - bu mövzuya hərb səhnələrini təsvir edən və müharibə təsvirləri olan əsərlər aiddir.

3. Mənzərə janrı buraya - təbiətin müxtəlif guşələrindən götürülmüş dağ, dərə, çəmən, çay, meşə, təbiət hadisələrindən götürülmüş tufan, ildırım, yağış, qar, iqlim landşaftlarından götürülmüş təsvirlər aiddir. Peyzaj - fransız sözü olub, "hüdudlanmış ərazi" deməkdir. Məsələn, çay plantasiyası, üzüm tarlası, pambıq sahəsi, taxıl sahəsi və s. Bunu da qeyd etmək lazımdır ki, dəniz təsvirləri olan əsərlər marina, onu işləyən rəssamlar isə marinist adlanır.

4. Məişət janrı - xalqın gündəlik yaşayış tərzi, onların həyatı haqqında məlumat verir. Görkəmli Azərbaycan rəssamı Əzim Əzimzadənin yaradıcılığında məişət janrı mühüm yer tutur:

“ Varlı evində toy”, “Kasıb evində toy”, “Varlı evində Ramazan bayramı, kasıb evində Ramazan” və s.

5. Portret janrında konkret şəxslərin təsvirləri verilir.

6. Natürmort janrı cansız təbiət deməkdir.

Məzmun etibarilə boyakarlıq sənəti tarixi boyakarlıq, mifoloji boyakarlıq, məişət boyakarlığı, portret boyakarlığı, mənzərə boyakarlığı, natürmort boyakarlığı və s. janrlara bölünür. Bu janrların təşəkkülü, əsasən, 15-ci əsrdən başlayaraq dəzgah boyakarlığının inkişafı ilə bağlı olmuşdur. Tarixi boyakarlıq janrına tarixi hadisələri, tarixi qəhrəmanları əks etdirən əsərlər daxildir. Rəssamın şahidi olduğu gündəlik həyat hadisələrini, insanın ailə, əxlaqi-tərbiyəvi münasibətlərini əks etdirən tematik şəkillər məişət boyakarlığına, konkret şəxslərin surətlərini canlandıran lövhələr isə portret boyakarlığına aiddir. Təbiət təsvirləri mənzərə janrının, müxtəlif əşyaların təsviri isə natürmort janrının məzmununu təşkil edir.

**Problemin aktuallığı.** Müxtəlif dövrlərin ictimai idealları, müxtəlif fəlsəfi problemlərin araşdırılması baxımından elmi məqalə aktuallıq kəsb edir. Burada obrazlılıq, emosionallıq, ifadə gözəlliyi boyakarlıq sənətinin əsas əlamətləri olaraq göstərilir.

**Problemin elmi yeniliyi.** Elmi məqalədə kolorit, rənglərin bir-birinə uyarlığı, ahəngdarlığı haqqında geniş məlumat verilmiş və boyakarlığın janr və növlərinin mahiyyəti elmi baxımdan araşdırılmışdır.

**Problemin tətbiqi əhəmiyyəti.** Elmi məqalədə irəli sürülən nəzəri fikirlərdən təsviri sənətin tədrisində və boyakarlığın işləmə vasitələri zamanı istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Azərbaycanda boyakarlığın tarixi. https://gulchinbabaeva.wordpress.com/
2. Boyakarlıq. http: //kin Boyakarlıq https:// 777word. wordpress. com/2010/ 10/ 06/boyakarlıq/
3. Əkbərova M. Təsviri sənət və onun tədrisi metodikası. Bakı: "Avanqard E.H.'1 MMC, 2012.
4. Həsənzadə C., Rüstəmov Ç., Hacıyeva F. İncəsənət haqqında söhbətlər. Bakı: ADPU, 1997.
5. Təsviri sənətin nəzəriyyəsi növləri və janrları. https: //kayzen. az/ blog/ kulturologiya /5583/

**E-mail:** kamala328@inbox.ru
**Rəyçi:** *ped.ü. fəls.dok.,* dos. Ç. Rüstəmov
**Redaksiyaya daxil olub:** 03.12.2018.